**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

**P R O T O K O L U № 4**

**Naxçıvan şəhəri** **20 may 2024-cü il**

20 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Cəlilzadə Aidə Məhəmməd qızı -Komitənin sədr müavini
2. Bağırsoylu Hüseyn Qədirulla oğlu -Komitənin üzvü
3. Həsənov Nüsrət Firudin oğlu -Komitənin üzvü
4. İbrahimov Qadir Abbas oğlu -Komitənin üzvü
5. Səfərli Hacıfəxrəddin Yəhya oğlu -Komitənin üzvü
6. Zeynalov Eldar Əhməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Cəlil Rüstəmov - Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri
2. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
3. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
4. Elşən Yolçuyev - Ali Məclis Aparatının Protokol sektorunun müdiri
5. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri
6. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi
7. Əli Qədimov - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri

**İclasın gündəliyi:**

**“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi**

İclası komitənin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 8 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələri və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri Əli Qədimov iştirak edir.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsmayıl Qəribli iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri dedi ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, “Media haqqında”, “Sərhəd mühafizə orqanları haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının qanunlarına müvafiq uyğunlaşdırma aparılması, seçki komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsi, şəffaflığının təmin edilməsi məqsədilə və Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 may tarixli məktubu ilə təqdim olunmuş təkliflər nəzərə alınmaqla, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Qanun layihəsi hazırlanmışdır.

İsmayıl Qəribli “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların qanun layihəsindən məlumatlı olduğunu bildirdi. Layihə barədə məlumat verməsi üçün söz Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmova verildi.

**Çıxışda:** Cəlil Rüstəmov bildirdi ki, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi əsasən uyğunlaşdırma xarakteri daşıyır. Bir çox qanunvericilik aktlarında dəyişikliklər edilməsi sözügedən qanunda da dəyişiklik edilməsini zəruri edir. Qanunun müəllifi Mərkəzi Seçki Komissiyasıdır. Layihə 41 maddədən ibarətdir, layihədə seçki komissiyası üzvlərinin təminatı, seçki komissiyalarının formalaşması, namizədlərin qeydiyyatı, seçki hesablarının idarəedilməsi, deputatların mandatından məhrum edilməsi ilə bağlı maddələr mahiyyət xarakterli dəyişikliyi nəzərdə tutur. Mahiyyət xarakterli dəyişikliklərin əsas hissəsindən biri Mərkəzi Seçki Komissiyasının statusu ilə bağlıdır. Mərkəzi

Seçki Komissiyası üzvlərinin təminatı, Əsasnaməsinin və strukturunun təsdiq edilməsi məsələlərinin seçki qanunvericiliyinə əlavə edilməsi təklif olunur, çünki, əvvəl bu müddəalar yox idi. Bununla yanaşı, qanun layihəsində Mərkəzi Seçki Komissiyasının üzvünün seçkinin elan olunduğu gündən seçkilərin nəticələrinin dərc olunduğu günədək muxtar respublika büdcəsi hesabına əməkhaqqı alması da qeyd edilir. Əvvəlki redaksiyada Mərkəzi Seçki Komissiyasının üzvlərinin ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulurdu. Naxçıvan Muxtar Respublikasında dairə və məntəqə seçki komissiyaları müvəqqəti fəaliyyət göstərdiyindən onların maliyyə hesabatlılığının yoxlanılması və yaxud dairə və məntəqə seçki komissiyalarının üzərində maliyyə hesabatı ilə bağlı nəzarət funksiyalarının müəyyən olunduğu maddələrin ləğv edilməsi layihəyə daxil edilmişdir. Eyni zamanda, dairə və məntəqə seçki komissiyalarının üzvlərinin də seçkilərin elan olunduğu gündən nəticələrinin elan olunduğu günədək əməkhaqqı alması məsələsinin seçki qanunvericiliyinə əlavə edilməsi təklif edilmişdir.

Sonra söz Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri Əli Qədimova verildi.

**Çıxışda:** Əli Qədimov qeyd etdi ki, cari ildə Ali Məclisə seçkilərin keçirilməsi nəzərdə tutulur. Məhz bu əsasla seçkilərin keçirilməsinin demokratikliyin və şəffaflığın təmin edilməsi, eyni zamanda seçki komissiyalarının fəaliyyətinin operativliyinin və peşəkarlığının təmin olunması məqsədilə “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda bəzi əlavə, düzəliş və dəyişikliklərin edilməsi təklif edilib. Bu düzəlişlərin bir qismi texniki xarakterli olsa da, məzmun və mahiyyət düzəlişləri də var. Bu günə kimi Ali Məclisə keçirilən seçkilərdə qanunda mövcud olan, lakin tətbiq edilməyən müddəalar var idi ki, bu da gələcəkdə seçkilərin keçirilməsi zamanı Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətində çətinliklər yarada bilərdi. Bu baxımdan müvafiq qanunda həmin müddəaların çıxarılması, ümumilikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunlaşdırma ilə əlaqədar bir çox dəyişikliklərin edilməsi nəzərdə tutulub.

Sonra Əli Qədimov “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa təklif olunan əlavə və dəyişikliklər barədə müqayisəli məlumat verdi.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri **İsmayıl Qəribli**, sədr müavini **Aidə Cəlilzadə**, üzvləri **Hacıfəxrəddin Səfərli** və **Qadir İbrahimov** fikirlərini və suallarını səsləndirdilər.

Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri **Cəlil Rüstəmov** və Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri **Əli Qədimov** səsləndirilən fikirlərə münasibətini bildirdi və suallara aydınlıq gətirdi.

**Çıxışda:** Komitə sədri İsmayıl Qəribli bildirdi ki, Ali Məclisin Hüquq siyasəti komitəsi tərəfindən “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsinə əsasən təqdim olunmuş qanun layihəsinə dair rəy qəbul edilməlidir.

Sonda İsmayıl Qəribli altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyini oxudu və “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**